*Çağdaş qazax ədəbiyyatının tanınmış imzalarından olan Karina Sarsenova artıq özünü şair, nasir, psixoloq, ssenarist kimi çoxdan təsdiqləyib. O, "ezoterik fantastika" ədəbi janrının yaradıcısı, Qazaxıstan, Rusiya, Çində nəşr olunmuş 17 kitab, çoxlu pyes, kinossenari, həm də populyar mahnı mətnləri müəllifidir, "Yol mühafizi" romanı əsasında mistik film çəkilib.*

*Karina Sarsenova həm də Avrasiya Yaradıcılıq İttifaqının prezidenti, Avrasiya ədəbi mükafatnın təsisçisidir.*



■ Karina SARSENOVA

## HƏR GÜN BİR AZ DA ÇOX SEVİRƏM SƏNİ

Hər gün bir az da çox sevirəm səni,
Çəkdiyim hər nəfəs təzədi, tərdi.
Atdığım hər addım daha da doğru,
Xeyirxah baxışım nurdan betərdi.
Qorxunu qorxudub sevirəm səni,
Tanrının önündə son borcum kimi.
Yeni hüdudları aşıb keçirəm,
"Ol"maq xəritəsi bilib sevgimi.

Mən səni sevdikcə boyun əyirəm
Qarışıq dünyada İlahi oda.
Kədər də, sevnic də səni sevdirir,
Həm yalan, həm də ki, gerçək dünyada.

## QƏLBİN GÖY ÜZÜNÜN ÜFÜQLƏRİNDƏ

Qəlbin Göyüzünün üfüqlərində,
Sevgimlə can atıb uçan həddəyəm.
Hayanda olsam da dualarımla
Allah tək qəlbinə itaətdəyəm.

Onda Yer üzünün gözəllikləri,
Göydə ulduzlardan pay düşər ona.
Yer tapar cənnətin ucalığında
Kiminsə verdiyi bəxşişə-dona.

Onda kamilliyin nazı-neməti,
Ora can atmağa könül cəhdi var.
Sadiq zövq dolusu xoşbətliyilə
Bir də o sevdaya varan əhdi var.

## SEVGİN - SEVİNCİMDİ, MÜKAFATIMDI...

Sevgin - sevincimdi, mükafatımdı,
Sevgin - ürəyimə əzəmət verir.
Bütün olanların, olacaqların
Kəhkaşan nurudu zirvədə yeri.

Sevgin - Göyüzünün gözəlliyini
Bəxş edən ilahi qüvvədi yerə.
Bizim aramızda qıl körpüləri
Qanad açmağım var əngin göylərə.

Olanın, olmazın son keçid yeri,
Yuxuya, gerçəyə son həddi sevgin.
Özünü hər yerdə tapa bildinsə,
Hər şeydən əzəldi-məbəddi sevgin.

**Tərcümə edən:**
**NURAFİZ**

kaspi.-2017.8-10 aprel.-S.23.